**FİLOLOGİYA**

**UOT 82-32**

# Gİ DE MOPASSANIN "BOYUNBAĞI" ƏSƏRİNDƏ MATİLDA OBRAZININ HERMENEVTİK VƏ PSİXOLOJİ MÜSTƏVİDƏ SƏCİYYƏSİ

**Aynaz RƏSULOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 22 noyabr 2024; çapa qəbul edilmişdir: 16 dekabr 2024; online-da çap edilmişdir: 19 mart 2025.
Received: 22th of November, 2024; accepted: 16th of December, 2024; published online: 19th of March, 2025.

**Açar sözlər:** *Gi de Mopassan, boyunbağı, Matilda, obraz, hermenevtik, psixoloji, səciyyə*

## Giriş

Məşhur fransız yazıçısı Gi de Mopassan öz müəllimi Flober kimi inanırdı ki, bədii ədəbiyyat reallığı ən böyük dəqiqliklə çatdırmalıdır. O, psixoloji kəşfiyyat və ya romantik təsvirdən daha çox obyektivliyə can atırdı, hekayə və romanlarını aydın şəkildə müəyyən edilmiş süjet xətləri və konkret, müşahidə edilə bilən detallar ətrafında qurmağa üstünlük verirdi. "O, bədii ədəbiyyatı "realist" adlandırmağın yanlış olduğunu düşünürdü. Onun fikrincə, hər hansı bədii əsər müəllifin yaratdığı süni bir dünyadır və yazıçı oxuculara müəyyən təsir bağışlamaq üçün bu dünyanı qurur. O, hər şeydən əvvəl faktlara sədaqətli qalırdı və hesab edirdi ki, dəqiq və diqqətlə aparılmış müşahidələr həyatın, hətta ən adi və nəzərəçarpmaz məqamlarına belə yeni baxış bucaqları və dərinlik qazandıra bilər" [11].

Gi de Mopassanın 1884-cü ildə yazdığı "Boyunbağı" hekayəsi insanı pessimistliyə və dibə çəkən aşağı insani keyfiyyətlərdən bəhs edir. "Boyunbağı" Mopassanın faktlara və müşahidələrə bağlılığını açıq şəkildə nümayiş etdirir. Mopassan Matildanın zənginlik arzusunu və ya həyatdakı bədbəxtliyini araşdırmaq əvəzinə, sadəcə olaraq bizə onun bədbəxtliyi və arzuladığı hər şey haqqında danışır.

Sevən həyat yoldaşı ilə sakit, təvazökar həyat, sosial həyatın ruhani olana görə fəda edən və heç nə ilə bitən iddialı gözəlliyə yaraşmırdı. Matildanın daxili arzuları ilə real həyat arasında kəskin fərqlər mövcuddur.

"*Boyunbağı*" əsərində adi bir dövlət məmurunun həyat yoldaşı olan Matilda Luazelin taleyində baş verən hadisələrdən bəhs edilir. Matilda ehtirasla gözəl bir həyat arzusunda olan gözəl, mürəkkəb gənc qadındır. Zərif və cazibədar Matilda kasıb bir məmurun qızı idi. Onun yaxşı cəmiyyətdən olan varlı adamla evlənmək şansı yox idi, ona görə də Xalq Təhsili Nazirliyinin kiçik məmuru Luazelin təklifini qəbul etdi.

## 1. Matilda obrazının səciyyəsi

Hekayədə qadın qəhrəmanı Matilda Luazelin zəngin həyat tərzi və dəbdəbəli paltarlar xəyal etməsi, lakin ərinin maddi cəhətdən onlarla ayaqlaşa bilməməsi təsvir

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* aynazresulova@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.1.060**

olunur. Bir gün o, tədbir üçün bahalı boyunbağı götürür, lakin boyunbağı itir. Matilda və əri boyunbağını başqa boyunbağı ilə əvəz etmək üçün külli miqdarda borca düşür və ömürlərini illər boyu borc içində keçirirlər. Matildanın öz reallığı əvəzinə xəyal dünyasına aludə olması sonda onu və ərini bədbəxtliyə və yoxsulluğa aparır. "Boyunbağı" əsəri insanların sahib olduqları ilə kifayətlənməli və öz reallıqlarını qəbul etmələri zərurətini dərindən əks etdirir.

Bu səbəbdən, o, xalq maarif nazirliyində çalışan aşağı rütbəli bir məmurla ailə həyatı qurmuşdu. Ancaq buna baxmayaraq, özünü xoşbəxt hesab etmirdi. Özünün daha varlı və dəbdəbəli həyata layiq olduğunu fikirləşirdi. Yazıçı bunu əsərdə xüsusilə təsvir edir: "O inanırdı ki, Tanrı onu rifah içində yaşamaq, gözəllik və zərafət içində bərq vurmaq üçün yaratmışdır. Lakin gerçəklik tam əksi idi, bu səbəbdən də daim iztirab çəkirdi. Evinin boş və soyuq görünüşü, divarlarının çılpaq olması, köhnə və rəngi solmuş stullar, həmçinin cırıq və dağınıq pərdələr ona utanc hissi yaşadırdı" [1, s. 80]. Mopassan Matilda Luazel kimi qadınların həyatının real mənzərəsini göstərirdi. Matilda Luazel həyatına uyğunlaşıb xoşbəxt ola bilərdi. Onu xoşbəxt etmək üçün hər şeyi edən əri var idi. Hətta ərinin xoşbəxtlik tapdığı yeməyinə yazığı gəlirdi. Ancaq o, əlində olanlarla kifayətlənmirdi. Matilda yoxsulluğun yükünü hiss edərək həyatdan çox peşmandır. Onun nə qiymətli daş-qaşı, nə də pal-paltarı yox idi. Ancaq belə şeylərdən ötrü ürəyi gedirdi. O, adamların xoşuna gəlmək, kişilərin gözünün onda qalmasını istəyirdi. Hər hansı bir təbii dildə yazılan mətnin dərin mənasının üzə çıxarılması hermenevtikanın əsas vəzifələrindəndir. "Sənət əsərini onun mütləq bədii dəyəri nöqteyi-nəzərindən dəyərləndirməyi öyrətmək şərhin aparıcı funksiyasıdır. Sənət əsərini dərk edən fərdin şüuru şərhin aləti kimi dəyərləndirilir. Bu isə o deməkdir ki, şərh ədəbi əsərin qavrayışının törəməsi hesab olunur" [2, s. 48].

Vaxtilə hərdənbir bir monastırda tərbiyə aldıqları varlı rəfiqəsinin yanına gedərdi. Oradan qayıdanda Matildanın halı çox pis olardı və bir daha ora getməyəcəyinə dair özünə söz verərdi. Buradan hiss olunur ki, Matilda Forestyeyə heyranlıq və bir az da paxıllıq hissi ilə yanaşır. Forestye Matildanın arzuladığı sosial təbəqəyə aiddir. Onun gözəl zinət əşyaları və lüks həyatı var. Bu, Matilda da aşağılıq kompleksi yaradır və öz kasıb həyatı ilə barışa bilmir. Matilda üçün Forestye yalnız bir dost deyil, həm də onun "olmaq istədiyi" yuxarı təbəqənin nümayəndəsidir. Matildanın Forestyeyə münasibəti hekayənin sonunda özünü dərk etməsi və həyata başqa bir tərəfdən baxması ilə nəticələnir.

Yoldaşının ona işdən gətirdiyi dəvət, əslində, çoxları üçün sevincli bir hadisə ola bilərdi. Çünki bu dəvət onların cəmiyyət içində müəyyən bir yer tutması üçün bir fürsət idi. Lakin, Matilda bunu tam əks şəkildə qarşılayır. O bu dəvəti qəbul etməyi özünə və mövcud maddi durumuna qarşı bir təhqir kimi görür. Onun üçün əsas məsələ tədbirdə iştirak etmək deyil, tədbirdə digərləri ilə müqayisədə necə görünəcəyidir. Matilda başa düşür ki, maddi imkanları məhdud olduğu üçün geyim və zərgərlik baxımından başqaları ilə ayaqlaşa bilməyəcək və bu da onun özünü alçaldılmış hiss etməsinə səbəb olur. O, insan dəyərini geyim və sərvətlə ölçür. Bu məqam Matildanın xarakterindəki tragizmi də göstərir. O, xoşbəxt ola biləcəyi anlarda belə, maddi narahatlıqlar ucbatından özü-özünü bədbəxt edir. Onun daxili narazılığı və reallıqla arzuları arasındakı uçurum, "Boyunbağı" hekayəsinin əsas konfliktinin də təməlini təşkil edir. Matildanın daim narazı olması onun öz həyatından həzz ala bilməməsinə gətirib çıxarır. Matilda Luazel eqoist bir insan idi. Ərinin onu xoşbəxt etmək üçün göstərdiyi səyləri qiymətləndirmirdi. Geyimi, paltarı haqqında düşünməyə başladı. Onun məclisə geyinəcək uyğun paltarı yox idi. Əri onu dilə tutmağa çalışdı. Çox da baha olmayan donu neçəyə almaq olar deyə soruşanda xanım Luazel isə dörd yüz frank olduğunu bildirdi. Əri isə bu qədər pulu silah almaq üçün yığmışdı. Buna baxmayaraq pulu ona verdi. Yoldaşı Luazeli xoşbəxt etmək üçün silah almağa görə yığdığı pulu qurban verən fədakar ər idi.

Məclis vaxtı yaxınlaşsa da, Matilda kədərli idi, çünki taxmağa daş-qaşı yoxdur. Əri ona çiçək taxmağı təklif etdi, amma o, razı olmadı. Matilda öz həyatında daim konfliktlə üzləşir. Onun öz arzuları ilə reallıq arasındakı fərq psixoloji gərginliyə səbəb olur. Bu gərginlik onun xarakterində komplekslər yaradır və özünü digər insanlarla müqayisə edərək daim narazı hiss etməsinə gətirib çıxarır. Bu, onun şəxsiyyətində inkişaf edən əsəbiliyə və özünə inamsızlığa səbəb olur. Biz hekayənin əvvəlində Matilda obrazını çox yaxşı tanıyırıq. O, yuxarı təbəqənin bir hissəsi olmaq arzusundadır. "O düşünür ki, daha keyfiyyətli mebel və geniş ev ona sevinc gətirəcək. Lakin bir məclisə çağırılması isə onu rüsvay edəcək" [6]. Nəhayət, ərinin ona dostu xanım Forestyedən daş-qaş almaq təklifini qəbul etdi. Hermenevtik yanaşmada Matildanın arzularını və eləcə də bu arzuların həyata keçirilməməsi səbəbindən yaranan konfliktləri araşdırmaq olar. Matilda həqiqətən də yüksək cəmiyyətin bir üzvü olmağa can atır, amma bu cəmiyyətə aid deyil və bu ziddiyyət onun tragik hekayəsinin əsasını təşkil edir.

Xanım Luazel dostunun yanına gedir və dərdini danışır. Xanım Forestye zinət əşyalarını ona göstərir. Hansını istəyirsə götürə biləcəyini söylədi. Xanım Luazel zinət əşyalarını bir-bir üzərinə taxaraq yoxladı. Birdən onun əlinə qara atlas qutudakı möhtəşəm brilyant boyunbağı keçdi. "Ürəyi tamahkarlıq hissi ilə döyündü, qaldıran kimi əlləri əsməyə başladı. Onu boynuna bağladı, hündür dabanlı ayaqqabı geyinib güzgüdə öz əksini görəndə valeh oldu" [7].

Sadə, lakin təminatlı və qayğısız həyatına alışa bilməyən, özünü ancaq dəbdəbəli mühit üçün yaradılmış hesab edən Matilda, Təhsil Nazirinin təsadüfən onları ziyafətə dəvət etməsi səbəbilə ərinin yığıb saxladığı dörd yüz frankı ziyafət geyiminə xərcləyir. Paltarına uyğun zinət əşyası taxmaq arzusu ilə rəfiqəsi xanım Forestyedən gözqamaşdırıcı bir brilyant boyunbağı borc alır ki, məclisdə öz cazibəsi ilə seçilib, hər kəsin diqqətini cəlb etsin.

Mopassan şöhrətpərəst qadının xarakterini canlı boyalarla əks etdirərək göstərirdi ki, bu qadın özünün ağlı ilə yox, ancaq geyimi, başqasının olsa belə, özgəsinin qiymətli bəzək əşyası ilə hamının diqqətini cəlb etməyə çalışır və özləri xarakterdə olan adamların diqqətini cəlb etməyi bacarır.

Şənliyin keçirildiyi gün xanım Luazel üçün uğurlu oldu. O, arzusuna qovuşur. Ziyafət onun üçün uğur idi. Ona görə ki, ilk dəfə onun görünüşü ilə həyatının reallığı üst-üstə düşürdü. O, digər qadınlardan daha gözəldir. Hamı ona heyran olur və kişiləri özünə cəlb edə bilir. Məmurlar yalnız onunla vals oynamaq arzusunda idilər. O cümlədən, nazir belə ona maraq göstərdi. Matilda üçün belə həyat xoşbəxtlik idi.

Onlar səhər vaxtı məclisdən gedirlər. Matildanın əri çiyninə paltarına yaraşmayan nimdaş bürüncək salır. Luazel isə bundan narahat olur və gözə görünməmək üçün tez oradan uzaqlaşmaq istədi. Matildanın narsist xüsusiyyətləri onun davranışlarında özünü göstərir. O, həmişə diqqət mərkəzində olmaq istəyir, öz gözəlliyinə və cazibədarlığına həddindən artıq dəyər verir. Lakin bu narsist xüsusiyyətləri onu daha da tənhalaşdırır və yanlış yola çəkir, çünki o, gerçək həyatda qarşılaşdığı çətinliklərə qarşı dözümlü deyil və idealizə etdiyi imici qorumaq üçün yalanlara əl atır.

Əsərin kulminasiya nöqtəsi olan boyunbağının itirilməsi, Matildanın xarakterindəki səmimiyyətsizlik və məsuliyyətdən yayınma meyllərinin açıq təzahürüdür. Boyunbağının itirilməsi faktı qarşısında o, dürüst davranmaq əvəzinə, vəziyyəti gizlətməyə üstünlük verir. Burada Mopassan insanın sosial qorxu və nüfuz itirmək qorxusu qarşısında əxlaqi prinsiplərdən necə imtina etdiyini ustalıqla nümayiş etdirir. Matildanın dostu Madam Forestyeyə qarşı səmimiyyətsizliyi onun dostluq münasibətlərində də dərin bir boşluq və formallıq olduğunu sübut edir. Matildanın dürüstlük əvəzinə yalanı seçməsi, onun sadəcə maddi əşyaların deyil, eyni zamanda mənəvi dəyərlərin də həqiqi mahiyyətini dərk etmədiyini göstərir. Matildanın boyunbağını əvəz etmək üçün borca girərək yeni

boyunbağı alması və bunun nəticəsində illərlə ağır fiziki əməkə məhkum olması ilə tamamlanır. Əvvəllər həyatın zərifliklərinə və estetikasına can atan Matilda, artıq qocalmış, yorğun və həyatın sərt reallıqları qarşısında əzilmiş bir varlığa çevrilir. Mopassan burada qadın obrazının psixoloji portretini ustalıqla quraraq, onun zahiri dəyişikliklərini daxili tənəzzüllə paralel verir. Əsərin tragik ironiyası isə Matildanın illərlə çəkdiyi iztirabların tamamilə əsassız olduğunun aşkara çıxması ilə daha da güclənir. Boyunbağının saxta olması gerçəyi Matildanın həyatı boyu reallıq və illüziya arasında yanlış seçim etdiyini açıq-aşkar sübut edir. Burada Mopassan burjua cəmiyyətində "qiymət" və "dəyər" anlayışlarının nisbi xarakterini ustalıqla ifşa edir. Onun faciəsi yalnız sosial status arzusunun və maddi göstəricilərin deyil, həm də mənəvi dəyərlərin yanlış anlaşılmasının nəticəsi olaraq təqdim edilir.

**Əsərdə müəllifin qəhrəmana münasibəti**

"Hekayədə, əsasən, istifadə olunan iki ədəbi vasitə simvolizm və ironiyadır. Simvolizm, obyektlər və hərəkətlərin yalnız birbaşa mənalarını aşaraq daha dərin və bəzən gizli məna kəsb etməsidir. İroniya isə, hadisələrin gedişi zamanı gözlənilən nəticənin tamamilə fərqli bir şəkildə baş verməsidir" [9]. Əsərdə ironiya Matildanın başqa birinin mülkünü öz malı kimi göstərmək və özünü aldatması ilə başlayır. Matilda rəfiqəsindən borc aldığı boyunbağını itirəndə, bunun çox bahalı olduğuna inanır. Boyunbağını əvəz etmək üçün çox pul xərcləyir, uzun illər borc içində yaşamağa başlayır. Lakin sonda boyunbağının əslində saxta olduğu ortaya çıxır. Bu məqam hekayənin ironik gülüşünü formalaşdırır, çünki Matilda öz həyatını dəyişmək üçün çalışdığı halda, sonda daha pis vəziyyətdə qalır.

Müəllifin əşyalardan istifadə etməsi hekayənin mərkəzi mövzusunu oxuculara çatdırır. "Boyunbağı, ziyafət və bahalı paltar, onun istədiyi həyat tərzini simvollaşdırır, ancaq bu tərz onun mövcud imkanları ilə uyğun deyil. Müəllif, ərinin onun bu həyatı arzuladığını bildiyi halda, ona paltar almağa inandırmaq üçün hiyləgər üsullardan istifadə etdiyini vurğulayır" [8]. Beləliklə, boyunbağı Matildanın tamahkarlığını təmsil edir. Çox dəyərli bir zərgərlik parçası kimi görünsə də, saxtadır. Süni brilyant boyunbağı xanım Luazelin xarakterini simvollaşdırır. Əsərdə boyunbağı yalnız bir zinət əşyası deyil, həm də Matildanın xoşbəxtliyinin və arzularının simvolu kimi çıxış edir. Boyunbağını itirməsi isə bu arzuların puç olmasının və həyatının məhv olmasının simvolik əlamətidir. Hermenevtik təhlil burada boyunbağının Matildanın daxili dünyasının təcəssümü olduğunu göstərə bilər; yəni bu zinət əşyası onun xoşbəxtlik anlayışının və özünü cəmiyyət qarşısında dəyərli hiss etməyin yeganə vasitəsidir.

Əslində, Matilda dövrün sosial təbəqəsində qadınların üzləşdiyi təzyiqlərin və standartların qurbanıdır. O öz sosial təbəqəsindən məmnun deyil, çünki cəmiyyət ona maddiyatın qadın uğurunun bir simvolu olduğunu öyrədib. Bu baxımdan Matilda, sadəcə, sosial statusunu yüksəltmək istəyən bir qadın deyil, həm də cəmiyyətin gözləntilərinin və maddi dünyagörüşünün qurbanı kimi görünə bilər.

Hekayədə müəllif tamahkarlığı nümayiş etdirir və insanın son nəticədə necə məhvinə səbəb ola biləcəyini təsvir edir. "İnsanın ruhu daim inkişaf edir və dəyişir, buna görə də onun nitqi yalnız başqalarının nitqi ilə müqayisə edildikdə düzgün şəkildə anlaşıla bilər"[5, s.132]. Matildanın hərəkətləri, özünü olduğundan daha varlı kimi göstərməyə can atması onu borclarla qarşılaşdırır. Sələmçilərlə, borc verənlərlə tanış olaraq onlardan borc pul aldılar. Otuz altı min franka yeni boyunbağı aldılar. Forestyenin boyunbağısına bənzəyən zinət əşyası zərgərdə məhz bu qiymətə idi. Onun həyata keçirə bilmədiyi arzuları və bu arzular uğrunda keçirdiyi həyat ona kəskin sosial tənqid gətirir. Bu kontekstdə Mopassan əsəri vasitəsilə o dövrün cəmiyyətinin sinfi fərqliliklərini və bu fərqliliklərin insanların həyatına təsirini vurğulamağa çalışır.

Xanım Luazel boyunbağını qaytarmaq üçün rəfiqəsinin evinə gedir. Boyunbağını gec qaytardığına görə xanım Forestye onu məzəmmət edir. Luazel rəfiqəsinin boyunbağının borc aldığı boyunbağıdan fərqli olduğunu anlamasından qorxur. Ancaq rəfiqəsi boyunbağıya açıb belə baxmır. Nəticədə, böyük yoxsulluğa düçar olan ailə tam on il boyunca məhrumiyyətlərə dözərək çətin şəraitdə yaşamağa məcbur olur. Keçmiş həyatından narazı qalan Matilda, əvvəlkindən qat-qat ağır bir yaşam tərzinə alışmağa çalışır, çünki artıq geriyə dönüş mümkün deyildi. "Onların yalnız bir gecənin kefinin nəticəsi olaraq çəkdiyi onillik əziyyət hər şeyi dəyişdi"[10]. Boyunbağının borcunu qaytarmaq üçün bütün imkanlarını səfərbər etdilər. Xidmətçini işdən azad etdilər, yaşadıqları evi tərk edib balaca bir daxmaya köçdülər. Matilda ev işlərinin hamısını öz üzərinə götürdü. Artıq o, sadə qadınlar kimi mətbəxdə qab-qacaq yuyur, yağlı qazanları təmizləyərkən dırnaqları sınırdı. Əyninə kasıb qadınların geyindiyi paltarları geyinməyə başladı. Bazarlara gedir, qiymətləri aşağı salmaq üçün satıcılarla mübahisə edirdi. Əri isə ailənin dolanışığını təmin etmək üçün gecələr işləyir, bəzən səhərə qədər yuxusuz qalaraq cüzi məvacib qarşılığında əlyazmaların üzünü köçürürdü.

On il keçdi və nəhayət, Luazellər həm əsas borcu, həm də yüksək faizləri ödəyib qurtuldular. Bu illər ərzində xanım Luazel xeyli yaşlandı və artıq kasıb ailələrdən olan qadınlardan heç nə ilə fərqlənmirdi. Saçları dağınıq, əynindəki paltarı səliqəsiz, daim zəhmət çəkdiyi üçün əlləri cod və qızarmış olurdu. Bəzən illər əvvəlki o möhtəşəm ziyafəti xatırlayır və öz-özünə düşünürdü: Həyat nə qədər gözlənilməz və dəyişkəndir! Bəzən insanın xilası və ya məhvi üçün sadəcə adi bir etdiyi əməli yetərli olur...

Mopassan Matilda obrazı vasitəsilə tənqidi bir mövqe sərgiləyir və insanların dəyərini yalnız əşyalar üzərindən müəyyənləşdirən maddi cəmiyyətə işarə edir. Matilda bu baxımdan həm də həmin cəmiyyətin ideallarını təqlid edən biri kimi təsvir edilə bilər. Belə bir nüansı nəzərə alaq ki, onun yaşadığı faciə təkcə öz şəxsi səhvi deyil, həm də cəmiyyətin maddiyyata həddindən artıq əhəmiyyət verməsinin nəticəsidir.

Gi de Mopassanın "Boyunbağı" əsərində cazibədar, lakin eqoist orta təbəqədən olan qadının yoxsul və çalışqan bir xanıma çevrilmə prosesi təsvir edilir. Baxmayaraq ki, xanım Luazel rahat bir evə sahibdir və onun xoşbəxt edən sadiq və xeyirxah əri var. O, ona verilən şeylərə nankorluq edirdi, çünki onun hərisliyi və var-dövlət arzusu var idi. "Bəs görəsən, əgər boyunbağını itirməsəydi, nə baş verərdi? Kim bilir… Həyat elə sirli və gözlənilməz hadisələrlə doludur ki, bir anda insanı ya xilas edə, ya da uçuruma sürükləyə bilər!" [3, s.172].

Matildanın illər sonra Madam Forestye ilə qarşılaşması zamanı yaşanan vəziyyət – Matildanın dostunun fiziki və mənəvi cəhətdən tamamilə çökdüyünü görməsi və bunun üzərinə öz həyatını müqayisə edərək təəssüf hissi keçirməsi Mopassanın qadına münasibətinin mürəkkəbliyini nümayiş etdirir. Müəllif burada qadın obrazını həm empatiya, həm də incə bir tənqid hissi ilə təqdim edir. Matildanın öz həyatında yaşadığı ağır zəhmətin və dəyişimin kökündə yalnız şəxsi səhv yox, eyni zamanda cəmiyyətin qadına yüklədiyi dəyərlər və gözləntilər dayanır. Əsərin sonunda boyunbağının saxta olduğu faktı Matildanın illərlə çəkdiyi əzabın əbəs olduğunu göstərir və Mopassan bununla qadının həyatını formalaşdıran təsadüflərin və yanlış anlamaların necə ağır nəticələr verdiyini vurğulayır. Bu məqam, müəllifin qadın taleyinə yanaşmasında təkcə fərdi zəifliyi deyil, sosial şərtlərin rolunu da qabartdığını sübut edir. Matilda özünü ona tanıtdıqdan sonra Forestyeni bu illər ərzində düşdüyü vəziyyətdən təəssüflənir və onu həm fiziki, həm də mənəvi çöküşünə görə günahlandırır. Matildanın illər boyu bu borcu ödəmək üçün çəkdiyi əziyyətləri öyrənən Forestye sarsılır və bütün bu iztirabların əbəs olduğunu bildirir. Çünki, Matildanın on il əvvəl itirdiyini düşündüyü həmin boyunbağı əslində dəyərsiz, sadəcə saxta bir bəzək əşyası idi.

Hekayə məhz bununla sonlanır və düşünmək olar ki, Mopassanın hekayəni Matildanın həqiqəti öyrəndiyi anda bitirməsi oxucuda çox güclü ədəbi təsir yaradır. Yazıçının hekayəni bu qədər kəskin bir dönüşlə sonlandırması insana bu vəziyyətin ağırlığını daha dərindən hiss etməyə imkan verir. Qəhrəmanın yaşadığı itkinin acısını hiss etməyi oxucunun öhdəsinə buraxır.

**Nəticə**

Mopassanın "Boyunbağı" hekayəsi, insan psixologiyasını, xüsusilə də varlı və yoxsul arasındakı fərqləri vurğulayaraq, insanların həyatda ən vacib olan şeyləri anlamaq və qiymətləndirmək məsələlərini tədqiq edir. Matilda Luazel obrazı hermenevtik və psixoloji təhlillərdə insanın sosial status arzusunun və bu arzunun ona gətirdiyi bəlaların təcəssümü kimi çıxış edir. Mopassan bu obraz vasitəsilə insanın həyatda yaşadığı daxili münaqişələri, özünə qarşı narazılığını və arzuların onu necə məhv edə biləcəyini göstərir. Yazıçı cəmiyyətin maddi statusa verdiyi önəmi və insanların bu maddi var-dövlətə görə özlərini bədbəxt etməsini satira ilə tənqid edir. Bu hekayə, bəzi oxuculara göstərişli fəaliyyətlərə olan bağlılığın əhəmiyyətini yenidən dəyərləndirməyə səsləyir.

## ƏDƏBİYYAT


1. Ağa M. Boyunbağı əhvalatları və ya müdrik çinli öz həmkəndlilərinə dörd dəfə nə demişdi // Ədəbiyyat qəzeti. 2016, 24 dekabr, 25 s.
2. Quliyev Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. Bakı: Azərbaycan. Universiteti nəşriyyatı, 2012, 254 s.
3. Mopassan Gi de. Hekayələr və novellalar. Bakı: Şərq-Qərb, 2006, 176 s.
4. Mopassan Gi de. Seçmə hekayələr. Bakı: Altun kitab, 2015, 208 s.
5. Cogito. Hermeneutik. Yapı Kredi Yayınları, Sayı: 89, Kış 2017, 319 s.
6. Analyzing the Theme of Greed in Guy de Maupassant ` s Story "The Necklace". (https://premium-papers.com/analyzing-the-theme-of-greed-in-guy-de-maupassants-story- the- necklace/)
7. Comparative Analysis: The Necklace and The Gift of the Magi. (https://studymoose.com/comparing-and-contrasting-the-necklace-and-the-gift-of- the-magi-essay).
8. Comparing The Neclase And Guy De Maupassant `s The Jewel. (https://www.123helpme.com/essay/Comparing-The-Necklace-And-Guy-De-Maupassants).
9. The Necklase by Guy de Maupassant. Symbolizm, İrony,Analysis. (https://study.com/academy/lesson/the-necklace-symbolism-irony.html).
10. The Neclace Story by Guy de Maupassant-Analysis. (https://www.scribd.com/document/413351100/The-Necklace-Story-by-Guy-de-Maupassant-Analysis)
11. Мопассан. Ожерелье. (https://obrazovaka.ru/books/de-mopassan/ozherele).
12. Ожерелье. (https://briefly.ru/mopassan/ozherele/)


***Резюме***

***Айназ Расулова***

***Герменевтическая и психологическая характеристика образа Матильды в «Ожерелье» Джи Де Мопасса***

Французский писатель XIX века Ги де Мопассан известен также как автор рассказов. Его рассказы отличаются краткостью. Произведения Ги де Мопассана – самые читаемые в мировой литературе, ценные произведения искусства, направленные на раскрытие внутреннего мира

человека. Он мог видеть влияние различных ситуаций на жизнь человека, те изменения, которые они создают во внутреннем мире человека.

Рассказ Ги де Мопассана «Ожерелье» – одно из самых известных и значимых произведений французской литературы.

Ги де Мопассан написал эту повесть в стиле реализма, отражающего человеческую психологию и изменения в обществе французского общества XIX века. Это произведение рассказывает о событиях, произошедших в Версальском дворце в Париже, и отражает сложную политическую и социальную атмосферу Французской революции.

В герменевтическом подходе Ги де Мопассан показывает через образ Матильды социальное расслоение общества и внутренние конфликты, которые испытывает человек перед лицом этого расслоения. Следует отметить, что нервеневтика происходит от греческого слова «hermeneuien» (объяснять, объяснять, объяснять, истолковывать). Герменевтикой сегодня называют область, обучающую «технологии интерпретации текста».

Ги де Мопассан символизирует внутренний мир персонажа Матильды, ее желания и страхи, ее недовольство собой и то, как это недовольство обернулось трагедией в психологическом подходе к пониманию смысла текста.

Таким образом, главным героем рассказа «Ожерелье» является женщина. Эта женщина, принадлежавшая к простому классу, не имела никакой надежды на будущее. Она не ожидала, что человек из высшего сословия влюбится в нее и женится на ней.

***Ключевые слова:*** *Ги де Мопассан, колье, Матильда, образ, герменевтика, психология, характер*

***Summary***

***Ainaz Rasulova***

***Hermeneutic and psychological characteristics of the image of Mathilde in the "Necklace" by G. De Maupasse***

The French writer of the 19th century, Guy de Maupassant, is also known as the author of stories. His stories are short. The works of Guy de Maupassant are the most read in world literature, valuable works of art aimed at revealing the inner world of a person. He could see the influence of various situations on a person's life, the changes that they create in the inner world of a person.

Guy de Maupassant's short story "Necklace" is one of the most famous and significant works of French literature.

Guy de Maupassant wrote this story in the style of realism, reflecting human psychology and changes in the French society of the 19th century. This work tells about the events that took place in the Palace of Versailles in Paris, and reflects the complex political and social atmosphere of the French Revolution.

In a hermeneutic approach, Guy de Maupassant shows through the image of Matilda the social stratification of society and the internal conflicts experienced by a person in the face of this stratification. It should be noted that nervousness comes from the Greek word "hermeneuien" (explain, explain, explain, interpret). Hermeneutics is now called the field that teaches «text interpretation technology».

Guy de Maupassant symbolizes the inner world of the character Matilda, her desires and fears, her dissatisfaction with herself and how this dissatisfaction turned into a tragedy in the psychological approach to understanding the meaning of the text.

Thus, the main character of the story "Necklace" is a woman. This woman, who belonged to the simple class, had no hope for the future. She did not expect that a man from the upper class would fall in love with her and marry her.

**Key words:** *Guy de Maupassant, necklace, Matilda, image, hermeneutics, psychology, character.*

Sivilizasiya elmi-praktiki jurnalının məsul katibi Fil.ü.f.d., prof. Şıxıyeva SəadətMəmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.